**İlahə İbrahimi Fərd**

## Sənin Eşqin

Neyləyim ki mələyim bir mənə sarı baxasan
Bir sərin çeşmə misalı ürəyimdə axasan

Yıxasan eşq evimi sonra əlinlə tikəsən
Süzülüb sürmə kimi göz qabağıma çıxasan

Üzülüb sel kimi getdin, gözəlim bir bəri bax
Ildırım tək, bu sınıq könlümə bəlkə şaxasan

Neyləmişdim sənə, birdən - birə gözdən salasan
Məni hicran oduna yandırasan, hey yaxasan

Necə qıydı ürəyin, dünya qədər qüssələri
Qəlbimin mehrabına ayə bə ayə taxasan

Bil, *İlahə* sənin eşqinlə bu dünyayə gəlib
Olmaya qəsd eləyibsən bu cəhanı yıxasan!